BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2014

UOT 94 "19/..."

# KİPR BÖHRANININ TÜRKİYƏ-ABŞ MÜNASİBƏTLƏRİNƏ TƏSİRİ

**G.İ.QARAYEVA**
***Bakı Dövlət Universiteti***
***qarayeva1947@hotmail.com***

*1974-cü il iyulun 15-də radikal yunan qüvvələri çevriliş edərək Makariosu devirdilər, Kipr Ellin Respublikası elan edildi. Növbəti məsələ isə Kiprin Yunanıstana birləşdirilməsi, yəni enozisin həyata keçirilməsi idi. Belə olduqda Sürix və London müqavilələrinin şərtinə uyğun olaraq, iyul ayının 20-də B.Ecevit başda olmaqla Türkiyə hökuməti qarant dövlət kimi türk silahlı qüvvələrinin Kipr adasına doğru hərəkətə keçməsinə və türklərin yaşadığı bölgələri nəzarət altına almasına göstəriş verdi. Türkiyə hökumətinin doğru və qəti tədbiri 1960-1970-ci illərdə ABŞ-Türkiyə münasibətlərinə kölgə salmış və onu enişli-yoxuşlu etmişdi.*

**Açar sözlər:** Makarios, Kipr böhranı, saziş

Sürix-London sazişləri əsasında 1960-cı il avqustun 16-da Kipr Respublikası rəsmən elan olundu (1, 17). Kiprın 1960-cı il konstitusiyasına görə Lefkoşa, Limasol, Maqusa, Baf və Larnaka şəhərlərində türklərin və yunanların ayrı bələdiyyələri yaradılmalı idi. Lakin bu bələdiyyələrin sərhədlərini cızmaq və mexanizmini qurmaq mümkün olmadı. Buna səbəb isə, Makariosun 1962-ci ilin martında bu beş böyük şəhərdə də tək bələdiyyə qurulmasını və bu bələdiyyələrdə türk əhalisinin sayı nisbətində təmsil edilməsini irəli sürməsi oldu (2, 785). Beləliklə, Makarios hökuməti 1960-cı il konstitisiyasının türklərə verdiyi hüquqları bilərəkdən pozurdu. Makarios hakimiyyətə gəldiyi günlərdən enosisi, yəni adanın Yunanıstana ilhaq edilməsini unutmadıqlarını və bunu gec-tez gerçəkləşdirəcəklərini israrla bildirmişdi.

1964-cü ildə Kipr ətrafında vəziyyət gərginləşənə qədər Türkiyənin ABŞ və Qərb ölkələri ilə münasibətləri normal inkişaf edirdi. Lakin həmin ildə Kiprdə baş verən böhran Türkiyəni adaya kiprli türklərin müdafiəsi məqsədilə qoşun çıxarmaq məcburiyyətində qoydu (3, 96). Bu məqsədlə, Türkiyənin baş naziri I.Inönü radio ilə çıxış edərək bildirdi ki, Kipr böhranını dinc yolla nizama salmaq mümkün olmadı. Buna görə, Türkiyə Kiprdə türk icmasının təhlükəsizliyini qorumaq məcburiyyətindədir (4, 323). Belə bir mövqe Türkiyə-

nin NATO üzrə müttəfiqləri tərəfindən qəbul edilmədi. Kipr böhranı zamanı Türkiyə-Amerika münasibətləri sınağa çəkildi. ABŞ prezidenti L.Conson Türkiyənin baş naziri C.İnönüyə göndərdiyi 5 iyun 1964-cü il tarixli məktubunda adaya türk qoşunlarının çıxarılmasına etirazını bildirdi. Məktubda qeyd edilirdi ki, «Türkiyənin belə bir addımı müttəfiqlər tərəfindən dəstəklənəcəkmi? Digər tərəfdən, sovetlərin bu işə qarışmasına şərait yaradacaqdır» (5, 305). Conson əlavə olaraq qeyd etmişdi ki, NATO-nun iki üzvünün-Türkiyə və Yunanıstanın silahlı qüvvələrinin bir-birinə qarşı vuruşması ağılsızlıqdır (6, 66). Eyni zamanda, ABŞ prezidenti məktubda 1947-ci il ABŞ-Türkiyə müqaviləsinə əsasən Amerika silahlarının yalnız ümumi daxili və xarici rəqiblərə qarşı işlənməsinə dair Türkiyənin götürdüyü öhdəliyi də vurğulamışdı (5, 306). Türkiyə prezidenti cavab məktubunda ABŞ-ın mövqeyi ilə razılaşmadığını bildirsə də, Kiprə qoşun çıxarmadı.

Amerika əleyhinə əhval-ruhiyyə Kipr böhranı zamanı özünün kulminasiya nöqtəsinə çatdı. Hətta Ankarada Amerika səfirliyi nümayişçilərdən mühafizə edilmək məqsədilə polislərlə əhatəyə alındı. Ölkədə Amerika əleyhinə əhvali-ruhiyyə təkcə sol elementlər arasında deyil, sağ millətçi dairələr arasında da artmışdı (7, 178). Amerika rəhbərliyinin Kipr böhranına münasibətindən fərqli olaraq, bir çox nüfuzlu Amerika qəzetlərində obyektiv yazılar dərc olunurdu. 1964-cü ildə işıq üzü görmüş yazıda qeyd olunurdu ki, "Cübbəli və saqqallı papaz-arxiyepiskop Makarios Kiprin prezidenti kimi fəaliyyət göstərir. Onun hökuməti bilərəkdən qarşıdurma yaradır və türk əhalisinin qırğınını təşkil edir. İki ayrı-ayrı icmanın daxil olduğu federal sistem kiprli türklərin tələblərini minimum səviyyədə yerinə yetirirlər" (8, 178).

Türkiyənin milli probleminin həllində düzgün mövqe nümayiş etdirməməsi bütün dairələrdə etirazla qarşılandı və ciddi tənqidlərə məruz qaldı. NATO və müttəfiqlərin də bu məsələdə düzgün mövqe tutmadıqları bütün səviyyələrdə Türkiyənin səlahiyyətli şəxslərinin nəzərinə çatdırıldı. Məhz bu vəziyyətdən sonra Türkiyə cəmiyyətində ABŞ və NATO-ya inteqrasiya kursunda dilemma formalaşmağa başladı. Belə bir vəziyyətdə, sosialist ölkələri, xüsusilə, SSRI ilə əlaqələrin yaxşılaşdırılmasının strateji istiqamətləri üzərində ciddi iş başlandı. Bununla yanaşı, Kipr böhranı ilə bağlı Türkiyə rəsmi dairlərində belə bir fikir formalaşdı ki, ABŞ-Türkiyə ikitərəfli sazişində dəyişiklik edilməli və NATO-dan asılı olmayan müstəqil milli silahlı qüvvələr yaradılmalıdır. Bu təkliflərlə ABŞ-a müraciət edilmək nəzərdə tutulmuşdu. Xalq Respublikası Partiyası 1968-ci ilin iyulunda xarici bazalar və tikililər üzərində Türkiyənin nəzarətini gücləndirmək və Türkiyə-ABŞ ikitərəfli sazişində dəyişikliklər edilməsinə dair qərar layihəsi hazırladı. Layihədə həm ABŞ, həm də SSRI ilə münasibətləri normal vəziyyətdə saxlamaq nəzərdə tutulurdu (9, 48).

ABŞ-la münasibətlərə kölgə salındığı bir zamanda Sovet İttifaqı ilə hələ 50-ci illərdən gərgin olan əlaqələri normallaşdırmaq istiqamətində addımlar atılmağa başlandı. Sovet ittifaqının dəvəti ilə Türkiyənin xarici işlər naziri Feridun Cemal Erkin 30 oktyabr – 6 noyabr tarixində Moskvada səfərdə ol-

muşdur. Bununla da, Sovet İttifaqında Türkiyə ilə yaxınlaşmaq istiqamətində kampaniya başlamışdı. 1964-cü ildə xarici işlər naziri Erkinin Moskvaya səfərinə cavab olaraq, 1965-ci ildə xarici işlər naziri Qromıko Ankaraya səfər etmişdir. 3 iyul 1965-ci ildə A.Kosıgin Akıs jurnalına verdiyi müsahibəsində demişdir: "Biz siyasi, iqtisadi və mədəni sahələrdə iş birliyi qurmalıyıq.... Sovetlər İttifaqının Türkiyədən heç bir torpaq tələbi etmədiyini sizə bəyan edirəm" (2, 830).

1965-ci ilin yanvarında Türkiyə hökuməti təşkilatın bir sıra üzvlərinin ardınca NATO-nun çoxtərəfli nüvə qüvvələrində iştirak etməyəcəyini bəyan etdi. 1967-1968-ci illərdə Türkiyə nümayəndələri BMT-də Nüvə silahı il bağlı müqaviləni müdafiə etdiklərini bildirdilər, 1969-cu ildə nüvə silahından azad zonaların yaradılması, kimyəvi və bakterioloji silahların qadağan edilməsi haqqında çıxış etdilər. Bütün bunlar göstərir ki, Türkiyə ABŞ-ın bütün göstərişlərini kor-koranə qəbul etmir, bir sıra məsələlərdə onların fikirləri haçalanır, zərurət yarandıqda isə İstanbul hökuməti mövqe nümayiş etdirməyi və iradə ortaya qoymağı bacarırdı.

Egey dənizinin kontenental şelfində neft və qaz ehtiyatlarının aşkar edilməsi və hər iki tərəfin həmin əraziyə iddia etməsindən sonra Türkiyə ilə Yunanıstan arasında ziddiyyətlər daha da kəskinləşdi. Kipr məsələsindən doğan narazılıq və ölkədə baş verən digər bir hadisə yenidən Amerika əleyhinə əhvali-ruhiyyənin artmasına və siyasi çağırışlara səbəb oldu. 1966-cı il iyulun 7-də dövlət nümayəndəsi Heydər Tunckanat ABŞ-ın Türkiyənin daxili işlərinə müdaxiləsi və bir sıra türk siyasi xadimlərinin amerikalılarla əlaqələrinə dair gizli sənədləri Türkiyə məclisinə təqdim etdi (10, 120). Bu sənədlər Mərkəzi Kəşfiyyat idarəsinin Türkiyə üzrə agentinin öz rəhbərinə 1965-ci il 22 noyabr tarixli hesabatı idi. Sənədlərdə Ədalət partiyasının ölkənin daxili problemləri ilə əlaqədar məsələlərin həllində ABŞ-a kömək üçün müraciəti əks olunmuşdu. Belə vəziyyətdə, Milli Birlik Komitəsində Türkiyə hökumətindən müstəqil xarici siyasət yeritməyi tələb edən "14-lər qrupu" komitənin tərkibindən çıxarıldı. R.B.Aslanovun qeyd etdiyinə görə, NATO-nun Avropada olan silahlı qüvvələrinin baş komandanı general Karstedin və MKİ-nin direktoru Alen Dallesin Ankaraya gəlişindən sonra Türkiyə hökuməti bu qərarı qəbul etdi (11, 56).

1950-ci illərin sonu, xüsusilə 1960-cı illərin əvvəllərində ABŞ-Türkiyə ikitərəfli müqavilələrində ABŞ bazalarının, eləcə də birgə ABŞ-Türkiyə bazalarının statusu ciddi narazılıq doğurdu. Belə bir vəziyyətə 1954-cü il ABŞ-Türkiyə müqaviləsi və bu müqavilədən irəli gələn digər sazişlər, onların forma və xarakterləri hüquqi baza yaratmışdı. 1963-1964-cü illər Kipr böhranı bu müqavilə və sazişlərə yenidən baxılması və yeni müqavilələrin bağlanması məsələsini gündəmə gətirdi. Bu müqavilələr ABŞ-ın Türkiyədəki bazalarının, birgə bazalarının, eləcə də, bu bazalarda fəaliyyət göstərənlərin status və imtiyazlarını müəyyən etməli idi.

1966-cı ilin martında Türkiyə-ABŞ hərbi sazişlərinə yenidən baxılması ilə əlaqədar iki ölkə arasında danışıqlar başladı. Qeyd etmək lazımdır ki, 1966-

cıilədək bu ölkələr arasında hərbi əməkdaşlıq haqqında 55 saziş imzalanmışdı. Yeni danışıqların başlanmasının zəruriliyini qeyd edən Türkiyə xarici işlər naziri I.Çağlayangül göstərirdi ki, Türkiyə-ABŞ sazişlərinin bir hissəsi 1960-cı il dövlət çevrilişi nəticəsində qüvvədən düşmüş, digərləri isə mövcud beynəlxalq vəziyyətin dəyişməsi ilə əlaqədar öz əhəmiyyətlərini itirmişdilər (12, 128).

Danışıqların gedişində ABŞ-ın bir neçə bazasının Türkiyəyə verildiyi elan edildi. 1969-cu il iyulun 3-də ABŞ və Türkiyə arasında «Birgə müdafiə üzrə əməkdaşlıq haqqında» müqavilə imzalandı. Müqaviləyə əsasən birgə hərbi müdafiə bazaları Türkiyənin mülkiyyəti statusu aldı və İstanbul hökuməti bu bazaların fəaliyyətinə nəzarət etmək imkanı əldə etdi. Beləliklə, Türkiyədə fəaliyyət göstərən Amerika şəxsi heyətinin hüquqları müəyyən edildi və onlar bir sıra imtiyazlardan məhrum edildilər (13, 170). Bu müqavilənin müddəaları NATO-nun baza və tikililərinə şamil edilmirdi. Onu da qeyd edək ki, artıq 1970-ci illərdə ABŞ-ın Türkiyədə 20-dən çox hərbi bazası və bu boğazlarda 7 minə yaxın hərbi heyəti fəaliyyət göstərirdi.

1967-1968-ci ilərdə ABŞ-ın VI donanmasının Aralıq dənizinə gəlişi əleyhinə İstanbulda və İzmirdə etiraz dalğası baş verdi. Bununla yanaşı, Türkiyəyə səfir təyin edilmiş Komer əlehyinə (əvvəllər o, MKİ-də yüksək vəzifə tutmuş, sonra isə ABŞ-ın Vyetnama müdaxiləsini planlaşdırmaq ilə məşğul olmuşdur) çıxışlar geniş vüsət aldı. Vəziyyət o həddə çatdı ki, prezident Nikson onu geri çağırmaq və onun yerinə Hendli adlı yeni səfiri göndərmək məcburiyyətində qaldı (7, 184).

Belə vəziyyət, Türkiyəni adekvat addımlar atmağa sövq edirdi. Qeyd edək ki, ABŞ və NATO-nun digər üzv dövlətləri kimi Türkiyə də ÇXR-nı tanımırdı. 1971-ci ildə Çinlə Türkiyə arasında diplomatik münasibətlər bərpa edildi. 1974-cü ilin iyulunda Türkiyənin xarici işlər naziri ÇXR-na səfər etdi. Bülənd Ecevetin ikinci hakimiyyəti dövründə (1978-1979) Çin-Türkiyə münasibətlərinin daha da inkişaf etdiyi nəzərə çarpır. Türkiyə bu münasibətlərin genişlənməsinə əsasən iki məqsədinin həyata keçirilməsi baxımından böyük əhəmiyyət verirdi: 1) Çinin BMT-nin Təhlükəsizlik Şurasının üzvü kimi Kipr probleminin həllinə öz təsirini göstərə biləcəyinə görə; 2) Türkiyənin Asiyanın bir sıra ölkələri ilə Çinin beynəlxalq vəziyyətindən istifadə edərək sıx əlaqə yarada biləcəyinə görə.

Dövlət və siyasi xadimlər Türkiyənin NATO-da olmasına müsbət hal kimi yanaşaraq, buna xarici təhlükədən qorunmağın təminatı kimi baxırdılarsa, bir sıra tarixçilər isə bunu mənfi hal kimi dəyərləndirirdilər. Məsələn, professor Faxir Arioğlu göstərirdi ki, ABŞ-Türkiyə münasibətləri yalnız NATO çərçivəsində kollektiv əməkdaşlıq xarakteri daşımalıdır və daxili siyasətə təsir etməməlidir (10, 120), başqa bir tarixçi X.Ulman isə narahatlıqla bildirir ki, NATO-ya daxil olmaqla Türkiyə özünü hər an gözlənilən nüvə müharibəsi təhlükəsi altında qoymuş olur (10, 121), digər tarixçi isə deyilənlərin fonunda Türkiyənin iqtisadi və siyasi sahədə xarici təsirdən azad olmasını, NATO-dan çıxmasını məqsədəuyğun hesab edir (14, 18).

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, Türkiyənin NATO-da iştirakının müsbət və mənfi tərəfləri vardır. Düzdür, Nüvə silahı bazalarının və digər silahların Türkiyə ərazisində yerləşdirilməsi onu hücum təhlükəsi altında qoyur və hər an müharibəyə cəlb edilə bilər. Məgər üzük qaşı kimi düşmənlə əhatə olunmuş Türkiyə həmişə təhlükə qarşısında olmamışdırmı? (Türkiyəyə edilən ərazi iddialarını və Boğazlar məsələsini, Yunanıstanın, Suriyanın ərazi iddialarını xatırlayaq, İranın özünü də bu siyahıya əlavə etmək olar). Türkiyənin NATO-da iştirakının və ABŞ-dan aldığı yardımın əhəmiyyətini azaltmaq da düzgün olmazdı. Türkiyənin NATO-da iştirakı ölkənin ümumi təhlükəsizliyini təmin etmiş, ABŞ-dan xarici yardım və silah alınması isə ölkənin hərbi qüdrətini artırmaqla yanaşı, ilk vaxtlar ölkədə iqtisadi sarsıntının qarşısını almış, xarici yardımın və investisiyanın ölkəyə cəlb edilməsi hesabına ölkədə burjuaziyanın və iqtisadiyyatın sürətlə inkişafını təmin etmişdir. Məlum bir həqiqəti xatırladaq ki, ölkədə nə qədər milyoner (varlı təbəqə) varsa, o dövlət həm varlı, həm də qüdrətli olar. Yaponların bu şüarı əldə əsas götürərək proteksionizm siyasətindən nə qədər faydalandığını xatırlamaq yerinə düşər. Neft mənbələrinə malik olmayan Türkiyənin iqtisadiyyatının inkişafını həmin dövr üçün qənaətbəxş hesab etmək olar.

Bu dövrdə Türkiyə ilə münasibətlərə aydınlıq gətirmək məqsədilə Prezident Conson İ.İnönünü Vaşinqtona dəvət etdi. Danışıqların gedişində İ.İnönü öz hökumətinin mövqeyini ortaya qoyaraq bildirdi ki, güclü təhlükəsizlik və təminat tədbirlərinin həyata keçirilməsi zəminində Sürix və London sazişlərinə görə türklərə verilən hüquqlar qorunmalıdır. Danışıqların nəticəsi olaraq ABŞ Kipr məsələsinin birdəfəlik həlli üçün vasitəçiliyi öz üzərinə götürdü. Lakin nə ABŞ, nə də BMT-nin məsələyə qarışması problemin həllinə yardımçı ola bilmədi. 1974-cü ildə Kipr böhranı zamanı ABŞ-ın və NATO-nun təzyiqlərinə baxmayraq, XCP-nın və Ecevitin öz fikrində israrlı olması onların nüfuzunu son dərəcə artırdı (15, 114). Çünki vəziyyət getdikcə məcrasından çıxırdı- gərginləşirdi. 1963-1974-cü illər ərzində minlərlə günahsız kiprli türklər öldürüldü, yaralandı, əlil oldu, kiprli yunan milislərinin təzyiqi nəticəsində 30.000 türk qaçqın oldu (16, 6). İş o yerə çatdı ki, 1974-cü il iyulun 15-də radikal yunan qüvvələri çevriliş edərək Makariosu devirdilər, Kipr Ellin Respublikası elan edildi. Növbəti məsələ isə Kiprin Yunanıstana birləşdirilməsi, yəni enozisin həyata keçirilməsi idi. Belə olduqda Sürix və London müqavilələrinin şərtinə uyğun olaraq, iyul ayının 20-də B.Ecevit başda olmaqla Türkiyə hökuməti qarant dövlət kimi türk silahlı qüvvələrinin Kipr adasına doğru hərəkətə keçməsinə və türklərin yaşadığı bölgələri nəzarət altına almasına göstəriş verdi. Türkiyə hökumətinin doğru və qəti tədbiri 1960-1970-ci illərdə ABŞ-Türkiyə münasibətlərinə kölgə salmış və onu enişli-yoxuşlu etmişdi.

1974-cü il Kipr böhranı zamanı türk ordusunun Amerikapərəst hissəsi üçün sınaq dövrü oldu. ABŞ nə Türkiyə, nə də Yunanıstan tərəfini fəal müdafiə etmirdi, qorxurdu ki, NATO-da parçalanma baş verər. Bu isə heç bir tərəfi qane etmirdi. Nəticədə, Yunanıstan NATO-nun tərkibindən çıxdı, ABŞ isə Türki-

yəyə silah satılması üzərinə embarqo qoydu. Belə vəziyyət, bir sıra zabitlərin həqiqi dost hesab etdikləri Amerikaya baxışlarını dəyişdi. 1974-cü il hadisələri türk hökumətini xarici siyasətdə müstəqil addım atmağa sövq etdi.

1970-ci illər ABŞ-Türkiyə münasibətlərində əsas narazılıq doğuran məsələ Türkiyənin kəndlərində yetişdirilən xaşxaş bitkisi ətrafında yaranan problem idi. Bu ABŞ-da Türkiyəyə qarşı, Türkiyədə isə ABŞ-a qarşı aparılan təbliğat kampaniyasında əsas mövzu idi. ABŞ tərəfi maliyyə konsepsiyası əvəzində həmin bitkinin yetişdirilməsinin qadağan edilməsini istəyirdi. 1971-ci ildə N.Erim hökuməti ABŞ-ın təzyiqləri altında bitkinin yetişdirilməsini qadağan edən qərar verdi. Lakin B.Ecevit hökuməti 1974-cü ildə bu qərarı ləğv etdikdən sonra iki ölkə arasında qarşılıqlı ittiham yenidən başlandı. ABŞ konqresi hətta Türkiyəyə yardımın dayandırılmasını əsaslandıran təklif layihəsinin müzakirəsini gündəmə gətirdi. Türkiyənin kiprli türkləri müdafiə məqsədilə həmin il Kipr adasına qoşun çıxarmasından və adanın üçdə biri üzərində nəzarət yaratmasından sonra ABŞ-ın Türkiyəyə hərbi yardımı dayandırması üçün xaşxaş məsələsi sadəcə bir bəhanə oldu. Yunan lobbisinin konqresə təsiri də embarqonun tətbiqində az rol oynamadı. Hadisələrin belə qızğın çağında 1974-cü il avqustun 8-də Nikson istefa verdi.

1974-1975-ci illər Türkiyənin bu addımı ABŞ və NATO üzrə müttəfiqləri ilə münasibətlərin gərginləşməsinə gətirib çıxardı. Əslində Türkiyənin bu addımı Vaşinqtonun müvafiq rəsmi dairələri ilə razılaşdırılmadan həyata keçirilə bilməzdi. Əks təqdirdə, Aralıq dənizi hövzəsində müttəfiqlər arasında qüvvələr nisbətinə böyük təsir göstərən belə bir əməliyyatın həyata keçirilməsi qeyri-mümkün idi. Bununla belə, ABŞ konqresi 1974-cü il oktyabrın 18-də Türkiyəyə hərbi yardımı qadağan edən qərar çıxardı (13, 171). ABŞ administrasiyasının bu qərara qarşı olması və konqresin qərarının yalnız 1975-ci il fevralın 5-də qüvvəyə minməsi yuxarıda qeyd edilən tendensiyanı dəstəkləyən arqument ola bilər. Vaşinqtonun Türkiyəyə silah satılmasına qoyulan embarqo NATO-da təmsil olunan əslində iki müttəfiq dövlət arasında yaranan münaqişədə bir tərəfin cəzalandırılması idi.

1970-ci illərin ikinci yarısında dünya bazarında konyuktura dəyişiklikləri, iqtisadi və siyasi sahələrdə özünü göstərən qeyri-sabit vəziyyətlər və s. hallar bu və ya digər ölkədən idxalatın ritminə bir çox hallarda sənaye quruculuğu üçün zəruri olan məhsulların idxalını əhəmiyyətli dərəcədə azaldır, yaxud tamamilə dayandırırdı. Bu hal özünü 1977-ci ildə «Kipr böhranı» zamanı Türkiyə ərazisindəki ABŞ hərbi bazalarının miüvəqqəti bağlanması ilə əlaqədar ABŞ-ın Türkiyəyə qarşı «embarqo siyasəti»ndə büruzə verirdi. Bu dövrdə ABŞ-Türkiyə münastbətlərinin kəskinləşməsi ilə əlaqədar həm ABŞ, həm də onun müttəfiqi olan dövlətlər ticarət əlaqələrində Türkiyəyə qarşı «məhdudlaşdırma» və «qadağan» tədbirlərinə əl atdılar. Bu isə sənaye quruculuğu üçün zəruri olan bir sıra xammal yarımfabrikat, maşın və avadanlıq qıtlığı yaratmış oldu.

Buna cavab olaraq, S.Dəmirəl hökuməti ABŞ-Türkiyə birgə hərbi baza-

larının, eləcə də, ABŞ bazalarının fəaliyyətini dayandıran qərar qəbul etdi və onlara nəzarəti Türkiyə silahlı qüvvələrinin həyata keçirdiyi elan edildi. Eyni zamanda, Birgə Müdafiə haqqında əməkdaşlığa dair müqavilənin qüvvədən düşdüyü ABŞ administrasiyasına və konqresinə bildirildi (13, 171). Digər tərəfdən, Türkiyə hökuməti SSRI ilə yaxınlaşmaq haqqında da siyasi təbliğatı gücləndirməklə ABŞ-a qarşı güclü təzyiq siyasəti yeritməyə başladı. Yaranmış vəziyyətin regionda ABŞ-ın milli maraqlarına zərbə vurduğunu nəzərə alaraq, ABŞ konqresi 1975-ci il oktyabrın 2-də embarqonun hissə-hissə ləğv edilməsinə dair qərar qəbul etdi.

Fikir ayrılıqlarının ləğv edilməsi, hərbi-strateji və siyasi əməkdaşlığın möhkəmləndirilməsi məqsədilə ABŞ və Türkiyə yeni müqavilənin bağlanmasına dair danışıqlara başladı və bu müqavilə 1976-cı il martın 26-da imzalandı. Müqaviləyə əsasən bağlı elan edilmiş bazalar yeni statusla fəaliyyətə başlayır, dörd il ərzində Türkiyəyə 1.366 dollar həcmində hərbi yardım verilirdi (13, 172). Bununla yanaşı, ABŞ adimnistrasiyasının təzyiqləri nəticəsində konqres 1978-ci il oktyabırın 7-də embarqonun tam ləğv edildiyinə dair qərar çıxardı. Həmin il oktyabrın əvvəllərində bazalar bir il müddətinə müvəqqəti olaraq fəaliyyətə başladı. Lakin Türkiyə tərəfi belə bir şərt qoydu ki, Amerika zabitlərinin əldə etdiyi kəşfiyyat xarakterli məlumatlar türk zabitlərinin də nəzərinə çatdırılsın (17, 17). Bu dövr ərzində ABŞ və Türkiyə 1976-cı il müqaviləsi əsasında yeni bir müqaviləni hazırlamalı idilər. 1979-cu ilin yanvar ayında Türkiyəyə əsasən iqtisadi yardımın artırılmasını nəzərdə tutan yeni müqavilənin hazırlanmasına dair müzakirələrə başlandı.

## ƏDƏBİYYAT


1. Heydərova S. Böyük Britaniyanın xarici siyasətində Kipr problemi (Avtoreferat). Bakı, 2012, 26 s.
2. Fahir Armağaoğlu. 20 yüzyıl siyasi tarihi.1914-1980. Ankara: 1983, 851 s.
3. Шмаров В.А. Кипр в средиземноморкой политике НАТО. М.: Наука, 1982, 246 s.
4. Новейщая история Турции. М.:Наука, 1968, 323 c.
5. N.Erim Bildiğim ve gördüğüm ölçüler içinde Kıbrıs. Ankara, Ajans-Türk Matbaacılık Sanayii, 1975, 464 s.
6. Поцхверия Б.М. Турция и кипрский вопрос. Политика Англии на Ближнем и Среднем Востоке, М.: Наука, 1966, 305 c.
7. Познаньска К. Старая и новая история Турция. М.: Наука,1974, 190 c.
8. Rauf R.Dektaş. The Cyprus Problem, What a it-How can it be solved? Cyrep (Lefkoşa), 2004, 71 s.
9. Еремеев Д. Е. Турецкая республика в 60-70-е годы. М.: Московский университет, 1984, 147 c.
10. Поцхверия Б.М. Внешняя политика Турции после Второй мировой войны. М.: Наука, 1976, 314 c.
11. Асланов Р.Б. Разногласия в Комитете Национального Единства после государственного переворота в Турции (27 мая 1960 года). Классовая борьба и революционный процесс в странах Ближнего и Среднего Востока. Баку: Элм, 1989, c. 56
12. Поцхверия Б.М. Внешняя политика Турции в 60-х начале 80-х годов XX в. М.: Наука, 2006, 294 c.

13. Проблемы развития стран современного Ближнего и Среднего Востока. М.: Наука, 1981, 285 с.
14. Атаев Т. США, НАТО и Турция. М.: Наука, 1973, 319 с.
15. Сотниченко А. Республиканская Турция. Поиск пути развития. Ближний Восток: война и политика. М., Издательский дом Марджани, 2010, 276 с.
16. Fakts About Turkish Republic of Northern Cyprus. Lefkoşa, 2004, 46 p.
17. Старченков Г. Роль армии в общественно-политической системе. «Азия и Африка сегодня».1984, № 7, с.17

## ВЛИЯНИЕ КИПРСКОГО КРИЗИСА НА ТУРЕЦКО-АМЕРИКАНСКИЕ ОТНОШЕНИЯ

**Г.И.КАРАЕВА**

### РЕЗЮМЕ

15 июля 1974 года, в результате переворота на Кипре радикальные греческие войска свергли Макариоса, после чего была провозглашена Греческая Республика. В последующем стоял вопрос об аннекции Кипра к Греции, точнее о реализации энозиса. В этом случае, по условиям Цюрихского и Лондонского соглашений, 20 июля турецкое правительство под руководством Б.Эджевита, в качестве гарант-государства, отдало приказ турецким вооруженным силам перейти в наступление в направлении острова Кипр и взять под контроль регионы, населенные турками. Этот решительный шаг турецкого правительства бросил тень на американо-турецкие отношения 60-70-ых годов, в которых временами появлялось напряжение.

**Ключевые слова:** Макариос, Кипрский кризис, соглошение

## THE IMPACT OF CYPRUS CRISIS ON US-TURKISH RELATIONS

**G.I.GARAYEVA**

### SUMMARY

On july 15, 1974, as a result of a coup in Cyprus radical Greek forces overthrew Makarios, after which the Hellenic Republic was proclaimed. Later, there was a question about the annexation of Cyprus to Greece, more precisely on the implementation of enosis. In this case, under the terms of the Zurich and London Agreements, on July 20, the Turkish government, under the leadership of B.Edjevit, ordered the Turkish armed forces to assume the offensive in the direction of the island of Cyprus and take control of the regions inhabited by Turks. This decisive measure of the Turkish government cast doubt on US-Turkish relations in the 60-70s, which led to tensions at times.

**Key words:** Macarios, Cyprus crisis, the agreement